## Unudulmaz anlarla yadda qaldı

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Qəbələ IV Beynəlxalq Musiqi Festivalı avqustun 5-də başa çatdı

13 gün davam edən festivalda Azərbaycan və xarici ölkələrdən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak etdilər. Festival London Royal Filarmonik Orkestrinin solistlərinin çıxışı ilə yekunlaşdırıldı. Orkestrin solistləri yüksək səviyyəli çıxışları ilə tamaşaçılara növbəti dəfə möhtəşəm klassik musiqi gecəsi bəxş etdilər.

İki dəfə «Qremmi» və 40-dan çox beynəlxalq mükafatın sahibi olan isveçrəli dirijor Şarl Dütuanın rəhbərlik etdiyi orkestri pianoda Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə, violonçeldə Dmitri Yablonski, saksofonda Teymur Süleymanbəyli, klarnetdə Şükür Səmədov müşayiət etdi. Konsert ABŞ bəstəkarı Leonard Bernstaynın «Kandid» operasından uvertüra ilə başladı. Orkestrin solistləri konsertin ikinci hissəsini bütövlükdə ABŞ bəstəkarı Corc Gerşvinin yaradıcılığından nümunələrə həsr etmişdi. Festival iştirakçıları bu dəfə də dünya şöhrətli orkestrin solistlərinin çıxışını heyranlıqla izləyərək təqdim edilən hər musiqi əsərini alqışlarla qarşıladılar. Sonda isə «Qafqaz Resorte» hotelində festivalın başa çatması münasibətilə təşkil edilən ziyafətdə gənc, istedadlı azərbaycanlı pianoçu, Beynəlxalq Montrö caz müsabiqəsinin qalibi İsfar Sarabskinin ifası dinlənildi...

Azərbaycanın xalq artisti Fərhad Bədəlbəyli deyib: «İki həftə davam edən Qəbələ IV Beynəlxalq Musiqi Festivalı Azərbaycan mədəniyyətini dünyaya təqdim etmək üçün növbəti ən yaxşı fürsət oldu və zənnimcə, biz bu istəyimizə çatdıq. Builki festivalın proqramını daha da zənginləşdirərək, oraya Azərbaycan ilə bağlı bir neçə konsertlər də əlavə etdik. Xarici ölkələrdən gələn sənət dostlarım yerli tamaşaçıların savadlı olmasını, klassik musiqini dinləmək və qavramaq bacarığını yüksək qiymətləndirdilər. Bu, məni çox sevindirdi. Çünki maarifçilik məqsədi ilə keçirilən festivalın builki tamaşaçıları ilə dörd il əvvəlkilərin klassik musiqiyə münasibətində böyük fərq yaranmışdır. Bu da mötəbər tədbirin uğuru deməkdir».